UOT- 81.574
Səhifə: 146-152
https://doi.org/10.59849/2663-8967.2026.2.146

Elmira Xanəliyeva
Bakı Slavyan Universiteti
kh.elmira88@gmail.com

EKOLİNQVİSTİKA VƏ LİNQVOEKOLOGİYA: TERMİNOLOJİ YANAŞMA VƏ NƏZƏRİ ƏSASLAR

XÜLASƏ

Məqalədə ekolinqvistika və linqvoekologiya anlayışlarının nəzəri əsasları, qarşılıqlı əlaqələri və fərqləndirici xüsusiyyətləri sistemli şəkildə təhlil olunur. Tədqiqat göstərir ki, ekolinqvistika dil ilə ekoloji sistemlər arasındakı qarşılıqlı münasibətləri araşdıran geniş və fənlərarası istiqamət kimi çıxış edir; dilin təbii və sosial mühitlə əlaqəsini kompleks şəkildə izah edir. Linqvoekologiya isə dillərin konkret mühit daxilində mövcudluq və fəaliyyət şərtlərini, onların sosial, mədəni və coğrafi kontekstlərdə qarşılıqlı təsirini öyrənir. Məqalədə bu iki yanaşmanın metodoloji və konseptual fərqləri müəyyənləşdirilməklə yanaşı, onların qarşılıqlı tamamlayıcı xarakter daşıdığı əsaslandırılır. Hər iki istiqamətin ortaq məqsədi dil, insan və mühit arasındakı qarşılıqlı əlaqələrin araşdırılması, eləcə də dil müxtəlifliyinin qorunması, davamlılığın təmin olunması və ekoloji şüurun formalaşdırılmasına töhfə verməkdir. Eyni zamanda, dilin ekoloji diskursdakı rolu, dil müxtəlifliyinin qorunmasında dil siyasəti və dil hüququ nəzərdən keçirilir. Bundan əlavə, araşdırma çərçivəsində makro və mikroekolinqvistik istiqamətlər, eləcə də müasir metodoloji yanaşmalar – diskurs analizi, sosiolinqvistik və empirik üsullar sistemli şəkildə təqdim olunur. Nəticədə, bu sahələrin müasir dilçilikdə inteqrativ və perspektivli istiqamətlər olduğu qənaətinə gəlinir.

Açar sözlər: *ekolinqvistika, linqvoekologiya, dil müxtəlifliyi, dil siyasəti, ekoloji şüur.*

Giriş: Ekologiya, mədəniyyət və mədəniyyətin tərkib hissəsi kimi dilin qarşılıqlı əlaqəsinin dərk edilməsi ekolinqvistikanın formalaşmasına zəmin yaratmışdır. Hazırda bu sahənin anlayış və terminoloji strukturu alimlər tərəfindən fəal şəkildə işlənib hazırlanır və təkmilləşdirilir. Bu kontekstdə dilçilikdə "ekolinqvistika" adlı yeni sahə formalaşmışdır. Ekolinqvistika dil və ekologiya arasında mövcud olan ümumi qanunauyğunluqları, prinsipləri və qarşılıqlı əlaqələri araşdırır, həmçinin ekoloji problemlərin həllində dilin rolunu təhlil edir.

"Ekolinqvistika" termini adətən ekologiya ilə dilçilik arasında əlaqə yaradan bütün tədqiqat sahələrini ifadə etmək üçün istifadə olunur. Ənənəvi olaraq, ekolinqvistikanın banisi Einar Haugen hesab olunur. O, dili müəyyən bir mühit daxilində fəaliyyət göstərən sistem kimi xarakterizə edərək, "dil ekologiyası" anlayışını irəli sürmüşdür. Haugenə görə, "ekolinqvistikanın predmeti müəyyən bir dil ilə onun mühiti arasındakı qarşılıqlı əlaqənin, həmçinin insan şüurunda və çoxdilli cəmiyyətlərdə dillərarası münasibətlərin öyrənilməsidir" [10, s.325].

"Ekolinqvistika" termini və ona uyğun nəzəriyyənin müəllifliyi ilə bağlı olduğu kimi, həmçinin "ekolinqvistika", "dil ekologiyası" və "linqvoekologiya" / "linqvistik ekologiya" anlayışlarının qarşılıqlı münasibəti məsələsində də müxtəlif yanaşmalar mövcuddur. Əksər hallarda bu terminlər sinonim kimi işlədilir [6, s. 122], lakin onların fərqləndirilməsi istiqamətində də müəyyən cəhdlər edilmişdir.

Ekolinqvistika ilə linqvoekologiya (dil ekologiyası) arasındakı əlaqə həm yaxın, həm də mürəkkəb xarakter daşıyır; belə ki, bu terminlər bir çox hallarda üst-üstə düşsə də, fərqli konseptual yanaşmalardan qaynaqlanır. Ümumi yanaşmaya görə, ekolinqvistika dil ilə ekoloji

sistemlər arasındakı qarşılıqlı əlaqələri araşdıran bütün tədqiqat sahələrini əhatə edən geniş bir anlayış kimi çıxış edir. Bu istiqamət linqvistika, ekologiya, sosiologiya və koqnitiv elmlərin kəsişməsində formalaşaraq, dilin insanın təbii və sosial mühitlə münasibətlərini necə əks etdirdiyini və eyni zamanda bu münasibətləri necə formalaşdırdığını öyrənməyi qarşıya məqsəd qoyur. Bu baxımdan, ekolinqvistika nəzəri, metodoloji və tətbiqi aspektləri özündə birləşdirən daha geniş bir tədqiqat sahəsi kimi xarakterizə olunur.

Buna qarşılıq olaraq, linqvoekologiya (dil ekologiyası) daha çox dilin konkret mühit daxilində mövcudluq və fəaliyyət şərtlərinin öyrənilməsinə yönəlmişdir. Bu istiqamət dillərin sosial, mədəni və coğrafi kontekstlərdə necə qarşılıqlı əlaqəyə girdiyini, bir-birinə təsir etdiyini, inkişaf etdiyini və ya tənəzzülə uğradığını araşdırır. Linqvoekologiya çərçivəsində dil kontaktı, dil siyasəti, dil hüququ, dil dəyişməsi, dillərin qorunması, picinləşmə və kreollaşma, eləcə də dillərin yoxa çıxması kimi anlayışlar xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən, linqvoekologiya daha çox sosiolinqvistika ilə sıx bağlı olan bir istiqamət kimi qiymətləndirilir və dil müxtəlifliyinin qorunması məsələsini mərkəzi mövqe kimi qəbul edir.

Müasir tədqiqatlarda dillərin birgə mövcudluğu problemi prioritet istiqamətlərdən biri kimi çıxış edir və bu məsələ daha çox "dil ekologiyası" (dilin ekologiyası) termini çərçivəsində təqdim olunur, nəinki ekolinqvistika anlayışı daxilində. Dil ekologiyası sahəsində aparılan araşdırmaların digər mühüm istiqaməti dil dəyişməsi, picinləşmə və kreollaşma proseslərinin öyrənilməsini əhatə edir. R.Heydərovun fikrincə, dillərin qarşılıqlı əlaqələrinin ən son mərhələsi picinləşmə və kreollaşmadır: "Picinlər dilin inkişafının təbii nəticəsi deyil, əksinə daimi və kütləvi etnik dil təmasları nəticəsində yaranan dil formasıdır. Leksik-qrammatik sistemin xarakterinə görə picinlər bir dilə və ya müəyyən arealın qohum dillərinə əsaslanan picinlər və müxtəlif qohum olmayan dillərin qarşılıqlı əlaqəsi əsasında yaranan picinlər olmaqla iki yerə bölünür" [2, s. 151].

Picinlərin əsasında formalaşan dillərə kreol dillər deyilir. "Kreol dil artıq sonrakı dil üçün doğma dil sayılır. Dünyada 7 milyondan artıq insan kreol dillərində danışır. Bu dilləri qruplaşdırsaq, əsasən, bir neçə qrupa ayrılır: ingilis kreolları, portuqal kreolları və fransız kreolları" [2, s. 155].

Dillərin yaşaması və məhv olması prosesi bir sıra sosial, siyasi, iqtisadi və mədəni amillərin qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb bir hadisə kimi qiymətləndirilir. Bundan əlavə, dillərin yoxa çıxması problemi ilə bağlı formalaşmış tədqiqat ənənəsində əsas diqqət dil müxtəlifliyinin qorunmasına yönəlir; bu isə öz növbəsində dil dayanıqlılığının təmin edilməsinin zəruri şərti kimi qiymətləndirilir. Dillərin davamlılığı ilk növbədə onların nəsildən-nəslə ötürülmə səviyyəsindən asılıdır.

Dil siyasəti dövlətin və cəmiyyətin dil istifadəsi, statusu və inkişafı ilə bağlı qəbul etdiyi qərar və strateji yanaşmaların məcmusunu ifadə edir; bu siyasət çərçivəsində rəsmi dilin müəyyənləşdirilməsi, azsaylı dillərin qorunması və inkişafına yönəlmiş proqramların həyata keçirilməsi nəzərdə tutulur. Bu amillər dillərin inkişafına həm müsbət, həm də mənfi təsir göstərə bilər. "Dilin və dilçiliyin səviyyəsini ölkədə aparılan dil siyasəti müəyyən edir. Dil siyasəti milli siyasətin ayrılmaz tərkib hissəsidir" [1, s.57]. Dillərin yaşaması təkcə dilin daxili struktur xüsusiyyətlərindən deyil, həmçinin onun sosial funksionallığından və cəmiyyət daxilindəki mövqeyindən asılıdır. Bu baxımdan, dil müxtəlifliyinin qorunması üçün məqsədyönlü və davamlı dil siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Xalqların dil hüquqları da ekolinqvistik yanaşmanın komponentidir. Dil hüquqları milli azlıqların müdafiəsinin təmin edilməsində ən zəruri prinsip hesab edilir. Bundan əlavə, dil hüququnun təmin edilməsi birgəyaşayışı şərtləndirir. "Hər hansı bir fərdin və ya dil qrupunun öz dil hüquqlarından istifadə edə bilməsinə təsir edəcək əsas amillərdən biri həmin fərdin və ya dil qrupunun üzvü olduğu cəmiyyətin dilə və dillərə olan (müsbət və ya mənfi) münasibətidir" [3, s.240]. Dil müxtəlifliyinin qorunmasında dövlət səviyyəsində həyata keçirilən dil siyasəti və dil hüququ həlledici əhəmiyyətə malikdir. Azsaylı xalqların dillərinin qorunması istiqamətində aparılan tədbirlər onların funksional imkanlarını genişləndirir. Bu istiqamətdə həyata keçirilən sistemli və davamlı tədbirlər mədəni müxtəlifliyin və sosial harmoniyanın qorunmasına xidmət edir.

Dilin ekoloji portretinə nəzər salsaq görərik ki, struktur xüsusiyyətlərini, istifadə mühitini və daşıyıcılarının sayını özündə əks etdirir. Məsələn, Azərbaycan çoxmillətli və çoxdilli ölkə kimi zəngin etnolinqvistik mühitə malikdir. Ölkə ərazisində yaşayan xalqların dilləri türk, Şimali Qafqaz, Hind-Avropa və kartvel dil ailələrinə mənsubdur. Bu dillər arasında Azərbaycan dili dominant mövqeyə malikdir və əhalinin böyük əksəriyyəti tərəfindən istifadə olunur.

Ekolinqvistika və Linqvoekologiya anlayışları arasında fərqləndirmə aparılarkən, onların elmi başlanğıc nöqtələri əsas meyar kimi götürülür:

- Ekolinqvistika əsasən linqvistik faktlardan (məsələn, diskurs, məna, dil strukturları) çıxış edərək onları ekoloji yanaşma prizmasından təhlil edir;
- Linqvoekologiya isə ekoloji və mühit amillərindən (sosial, mədəni, bioloji faktorlar) çıxış edərək onların dil sistemlərinə və dilin fəaliyyətinə təsirini araşdırır.

Bununla belə, bir çox tədqiqatçılar bu terminləri qismən sinonim kimi qəbul edirlər. Xüsusilə rus və postsovet dilçilik ənənəsində "linqvoekologiya" anlayışı çox vaxt beynəlxalq elmi mühitdə "ekolinqvistika" kimi tanınan sahəni ifadə etmək üçün istifadə olunur. Nəticə etibarilə, bu anlayışlar arasındakı sərhədlər həmişə aydın şəkildə müəyyənləşdirilmir və onların istifadəsi çox zaman konkret elmi ənənədən və tədqiqatın istiqamətindən asılı olur.

Bütün fərqlərə baxmayaraq, hər iki istiqamətin əsas məqsədi eynidir: dil, insan və mühit arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi, eləcə də dil müxtəlifliyinin qorunması, davamlılıq və ekoloji şüurun formalaşdırılması kimi məsələlərə töhfə vermək. Buna görə də ekolinqvistika və linqvoekologiya bir-birindən tam ayrılmış sahələr kimi deyil, daha çox qarşılıqlı tamamlayıcı və əlaqəli elmi yanaşmalar kimi qiymətləndirilməlidir.

Ekolinqvistik yanaşmaya əsasən dil yalnız kommunikasiya vasitəsi deyil, eyni zamanda cəmiyyətin ekoloji dünyagörüşünü formalaşdıran mühüm sosial mexanizmdir. Dil vasitəsilə formalaşan diskurslar insanların təbiətə münasibətini müəyyən edir və onların davranışına təsir göstərir.

Ekolinqvistika daxilində əsasən iki tədqiqat istiqaməti fərqləndirilir:

- makroekolinqvistika;
- mikroekolinqvistika.

Makroekolinqvistika dillərin yaşaması və məhv olması, dil siyasəti, dil hüquqları və dil konfliktləri kimi məsələləri araşdırır. Bu istiqamət dil müxtəlifliyinin qorunması və davamlılığı baxımından xüsusi əhəmiyyət daşıyır.

Mikroekolinqvistika isə dil vahidlərinin, nitq aktlarının və ümumilikdə nitq davranışının kommunikativ və etik aspektlərini təhlil edir. Bu sahə "linqvoekologiya" kimi də tanınır və dilin istifadəsinin insan və cəmiyyət üzərindəki təsirini öyrənir. Onun əsas tədqiqat sahələri A.P. Skovorodnikov tərəfindən iki əsas istiqamət üzrə müəyyənləşdirilir. "Birinci istiqamət dil və nitq deqradasiyası ilə bağlıdır və burada dilin inkişafına, eləcə də onun nitqdə təzahürünə mənfi təsir göstərən amillərin öyrənilməsi nəzərdə tutulur. İkinci istiqamət isə dil və nitqi əhatə edir ki, bu da dilin zənginləşdirilməsi yollarının araşdırılması, həmçinin nitq ünsiyyətində etik və praqmatik prinsiplərin təkmilləşdirilməsi ilə bağlı məsələləri özündə birləşdirir" [7, s. 70].

Bu elmi istiqamət bir neçə nəzəri və metodoloji əsaslara söykənir. Birincisi, o, sosiohumanitar biliklərdə "mədəni dönüş"ün ən aydın şəkildə təzahür etdiyi linqvokulturologiyanın ümumi müddəalarına əsaslanır. Bu yanaşma çərçivəsində "mədəniyyətin dillə ifadə olunması" və "dilin mədəniyyətlə şərtlənməsi" kimi anlayışlar geniş qəbul olunmuşdur.

İkincisi, bu istiqamət linqvistik emosiyalar nəzəriyyəsinin metodoloji prinsiplərinə əsaslanır. Həmin nəzəriyyəyə görə, emosional yüklü sözlərin insan sağlamlığına təsirinin nəzərə alınması zəruridir. Emosiyalar linqvistikası ilə emotiv linqvoekologiya arasındakı qarşılıqlı münasibətlər N.G.Solodovnikova tərəfindən daha da dəqiqləşdirilir. Onun fikrincə, "kommunikativ situasiyalar emosiyaların yaranmasına səbəb olur, bu emosiyalar isə onları ifadə edən semiotik vasitələrin seçiminə təsir göstərir və əksinə. Kommunikasiyanın ekoloji baxımdan səmərəliliyi isə müsbət və mənfi qiymətləndirici emosional vasitələr arasında balansın qorunması ilə təmin olunur" [8, s. 46].

Müasir elmi ədəbiyyatda işlədilən iki termin – linqvoekologiya (dil ekologiyası) *və* ekolinqvistika – arasında fərqləndirmə aparılarkən qeyd olunur ki, linqvoekologiyanın əsas üstünlüyü onun arxasında dayanan zəngin linqvistik ənənə ilə bağlıdır. Bununla yanaşı, ekolinqvistikanın üstün tərəfi bu sahənin birbaşa linqvistika ilə əlaqələndirilməsi ilə izah olunur.

Ekolinqvistika ilə linqvoekologiyanın qarşılıqlı münasibətini izah edən V.P. Korovuşkin bu yanaşmanı sosiolinqvistika termini ilə müqayisə edir: "əgər başlanğıc nöqtə kimi linqvistik faktlar – dil işarələri götürülürsə, bu, sosiolinqvistik yanaşmadır. Eyni məntiq əsasında, ekolinqvistika terminini linqvistik elmin elə bir bölməsinə aid etmək olar ki, burada əsas kimi linqvistik faktlar – dil işarələri çıxış edir; əksinə, linqvoekologiya termini isə ekoloji elmin elə bir sahəsinə şamil edilməlidir ki, burada dil işarələrinin fəaliyyətinə təsir edən ekoloji faktlar əsas götürülür" [5, s. 62].

Bununla belə, tədqiqatçı mövcud tərifl ərə əsaslanaraq bu fənlərarası sahənin qısa xarakteristikasını təqdim edərkən, "tam sinonim olmasa da, bu iki termini" yenidən eyniləşdirir və qeyd edir ki, "linqvoekologiyanı (ekolinqvistikanı) dilin sosial-antropoloji mühitdə mövcudluğunu, eləcə də insan və cəmiyyətin linqvistik mühitdə fəaliyyətini öyrənən müstəqil fənlərarası elm kimi qısa və dolğun şəkildə müəyyənləşdirmək olar" [5, s. 62]. Bu baxımdan, müəllifin termin və anlayışları linqvoekoloji və ekolinqvistik olaraq ayrıca təsnif etməsi natamam görünür. Çünki əslində həmin anlayışların hamısı linqvoekologiya çərçivəsində birləşir və bu sahənin əsas xüsusiyyətlərinin izahına xidmət edir.

XX əsrin 90-cı illərinə doğru ekoloji linqvistika və dil ekologiyası müstəqil, lakin qarşılıqlı şəkildə əlaqəli elmi istiqamətlər kimi formalaşmışdır. Linqvistikanın ekolojiləşdirilməsi ilə bağlı müxtəlif yanaşmalar arasında konseptual körpülərin yaradılması istiqamətində mühüm təşəbbüs A.Fill tərəfindən irəli sürülmüşdür. A. Fillin yanaşmasına görə, ekolinqvistika ekologiya ilə linqvistikanı birləşdirən bütün tədqiqat sahələrini əhatə edən ümumi bir termin kimi çıxış edir. Tədqiqatçı hesab edir ki, ekolinqvistika dili nəzəri, metodoloji və empirik aspektlərdən araşdırır və bu istiqamətdə bir sıra əsas vəzifələr müəyyənləşdirir:

1. ziddiyyətsiz dil nəzəriyyələrinin işlənib hazırlanması;
2. dil sistemlərinin və mətnlərin tədqiqi;
3. ekoloji problemlərlə əlaqəli dil universallarının araşdırılması;
4. qeyd olunan universalların müəyyən edilməsi məqsədilə ayrı-ayrı dillərin öyrənilməsi (müqayisəli tədqiqatların aparılması nəzərdə tutulur);
5. uşaqlarda və böyüklərdə ekoloji düşüncənin formalaşdırılması, yəni "ekosavadlılıq" səviyyəsinin artırılmasında dilin rolunun araşdırılması [9, s. 51].

S.V.Steffensen və A.Fill ekolinqvistik yanaşmaların nəzəri əsaslarını müəyyənləşdirərkən "ekologiya" anlayışının (dil mühiti mənasında) dörd fərqli interpretasiyasını ayırd edirlər. Bu interpretasiyalar aşağıdakı kimi sistemləşdirilir:

1. dilin simvolik ekologiyada mövcudluğu – burada dil digər dillər və simvolik sistemlərlə birlikdə müəyyən coğrafi areal daxilində qarşılıqlı münasibətdə öyrənilir;
2. dilin təbii ekologiyada mövcudluğu – bu yanaşma dilin bioloji və fiziki mühitlə (relyef, iqlim, fauna, flora və s.) əlaqəsini tədqiq etməyə yönəlir;
3. dilin sosial-mədəni ekologiyada fəaliyyəti – bu çərçivədə dil kommunikativ icmaların formalaşmasında və fəaliyyətində əsas amil kimi çıxış edir;
4. dilin koqnitiv ekologiyada mövcudluğu – burada diqqət koqnitiv mexanizmlərin öyrənilməsinə yönəldilir [11, s. 7].

Ekolinqvistika və linqvoekologiya arasındakı nəzəri fərqlər və kəsişmə nöqtələri müəyyənləşdirildikdən sonra, bu sahələrin metodoloji inkişafı, tətbiqi istiqamətləri və müasir tədqiqat tendensiyalarının araşdırılması onların müasir fənlərarası elmdə necə inkişaf etdiyini daha aydın şəkildə nümayiş etdirir. Metodoloji baxımdan, ekolinqvistika getdikcə daha çox diskurs-analitik yanaşmalara müraciət edir. Xüsusilə, tənqidi diskurs analizi (CDA), korpus dilçilik və koqnitiv dilçilik bu sahədə geniş tətbiq olunur. Bu metodlar vasitəsilə iqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması və davamlı inkişaf kimi ekoloji problemlərin ictimai diskursda necə qurulduğu və ideoloji baxımdan necə təqdim edildiyi araşdırılır. Ekolinqvistika yalnız təsviri

deyil, həm də normativ və transformativ xarakter daşıyaraq dil vasitəsilə cəmiyyətin dəyərlərinə və davranış modellərinə təsir etməyi hədəfləyir.

Buna qarşılıq olaraq, linqvoekologiya daha çox empirik və təsviri metodlara üstünlük verir və konkret ekoloji şəraitdə müşahidə olunan dil hadisələrinin öyrənilməsinə yönəlir. Linqvoekologiya xüsusilə dil kontaktı şəraitində, çoxdilli cəmiyyətlərdə və təhlükə altında olan dillərin tədqiqində mühüm rol oynayır. Bu səbəbdən, o, dil müxtəlifliyinin sənədləşdirilməsi və qorunması baxımından əhəmiyyətli olmaqla yanaşı, dil siyasəti və çoxdilli təhsil təşəbbüslərinin hazırlanmasına da töhfə verir.

G.A.Kopnina da "dil ekologiyası" və "ekolinqvistika" anlayışlarının eyniləşdirilməsini məqsədəuyğun hesab etmir. O, "dil ekologiyası" və "nitq ekologiyası" kimi formalaşmaqda olan tədqiqat istiqamətlərini göstərərək, bu sahələri ekolinqvistikanın tərkibində müstəqil istiqamətlər kimi nəzərdən keçirir [4, s. 81].

Bu sahələr arasında fərqlər onların tətbiqi yönümlərində də özünü göstərir. Ekolinqvistika daha çox ekoloji kommunikasiya, ekosavadlılıq və davamlı inkişaf təhsili ilə əlaqələndirilir və dilin ekoloji şüurun formalaşmasında rolunu araşdırır. Linqvoekologiya isə daha çox dil planlaşdırılması və dil siyasəti ilə bağlı məsələlərə yönəlir, xüsusilə də dil müxtəlifliyinin qorunması və azsaylı dillərin müdafiəsi kontekstində.

Nəticə: Aparılan təhlil göstərir ki, ekolinqvistika və linqvoekologiya müasir dilçiliyin fənlərarası inkişafında mühüm yer tutur. Dil, cəmiyyət və mühit arasındakı qarşılıqlı əlaqələrin dərk olunmasına yeni perspektivlər açır. Bu iki yanaşma müxtəlif metodoloji başlanğıclara əsaslansa da, onların məqsədi ortaqdır: dilin ekoloji kontekstdə öyrənilməsi və dil müxtəlifliyinin qorunması.

Ekolinqvistika daha çox ekoloji problemlərin dil vasitəsilə necə təqdim olunduğunu araşdıraraq cəmiyyətin ekoloji davranışına təsir göstərməyə yönəlir. Linqvoekologiya isə dillərin real sosial-mədəni mühitdə mövcudluğunu, inkişafını və qorunmasını təmin edən amilləri tədqiq edir.

Beləliklə, bu iki istiqamətin inteqrasiyası dilin yalnız kommunikativ vasitə deyil, həm də sosial-ekoloji sistemin ayrılmaz komponenti kimi dərk edilməsinə imkan verir. Gələcək tədqiqatlar üçün onların metodoloji sintezinin gücləndirilməsi və tətbiqi sahələrinin genişləndirilməsi xüsusi aktuallıq kəsb edir.

Ədəbiyyat siyahısı

1. Əsgərov M.B. Demokratik dil siyasəti modelinin prioritet istiqamətləri // "Dilçilik İnstitutunun əsərləri" toplusunun Roza Eyvazovanın 80 illik yubileyinə həsr olunmuş xüsusi buraxılışı, – 2017. № 2, – s. 57-70.
2. Heydərov, R. A. Dillərin inkişafında dil əlaqələrinin rolu. / R. A. Heydərov – Bakı: Elm və təhsil, 2013. – 216 s.
3. Qəribova J.Ə. Sosiolinqvistika / J.Ə. Qəribova. – Bakı: Sim-Sim, 2025. – 384 s.
4. Копнина Г.А. Экология языка и экология речи как разделы эколингвистики // Экология языка и коммуникативная практика. – 2014. – № 2. – с. 78–89.
5. Коровушкин В.П. Основные атрибуты лингвоэкологии как автономной междисциплинарной отрасли языкознания // Вестник Череповецкого государственного университета. – 2011. – Т. 1. – № 28. – с. 60–64.
6. Огдонова Ц.Ц. Концептуальные основания лингвоэкологической парадигмы научных исследований // Альманах современной науки и образования. – Тамбов: Грамота, 2009. – № 2 (21). – Ч. III. – с. 122–124.
7. Сковородников А.П. К становлению системы лингвоэкологической терминологии // Речевое общение: Специализированный вестник Красноярского государственного университета. – Красноярск, 2000. – Вып. 3 (11). – с. 70-78.
8. Солодовникова Н.Г. Содержание научного направления «эмотивная лингвоэкология»: проблемы и перспективы // Эмотивная лингвоэкология в

современном коммуникативном пространстве. – Волгоград: Перемена, 2013. – с. 43–52.
9. Fill, A. Ecolinguistics: State of the Art 1998 // In: Fill A., Mühlhäusler P. (eds.). The Ecolinguistics Reader: Language, Ecology and Environment. – London; New York: Continuum, 2001. – p. 43–53.
10. Halliday M.A.K. New Ways of Meaning: The Challenge to Applied Linguistics // The Ecolinguistics Reader: Language, Ecology and Environment / ed. by A. Fill, P. Mühlhäusler. – London; New York: Continuum, 2001. – 202 p.
11. Steffensen S.V., Fill, A. Ecolinguistics: The State of the Art and the Future Horizons // Language Sciences. – 2014. – Vol. 41. – Part A. – p. 6-25.

Эльмира Ханалиева

Эколингвистика и лингвоэкология: терминологический подход и теоретические основы

Резюме

В статье системно анализируются теоретические основы, взаимосвязи и отличительные особенности эколингвистики и лингвоэкологии. Исследование показывает, что эколингвистика выступает как широкое междисциплинарное направление, изучающее взаимодействие языка и экологических систем и комплексно объясняющее связь языка с природной и социальной средой. Лингвоэкология, в свою очередь, сосредоточена на изучении условий существования и функционирования языков в конкретной среде, а также их взаимодействия в социальном, культурном и географическом контекстах.

В статье выявляются методологические и концептуальные различия между этими подходами, а также обосновывается их взаимодополняющий характер. Несмотря на различия, обе области имеют общую цель — исследование взаимосвязей между языком, человеком и окружающей средой, а также содействие сохранению языкового разнообразия, устойчивому развитию и формированию экологического сознания.

Кроме того, рассматриваются роль языка в экологическом дискурсе, а также языковая политика и языковые права в контексте сохранения языкового разнообразия. В рамках исследования также представлены макро- и микроэкологические направления, а также современные методологические подходы — дискурс-анализ, социолингвистические и эмпирические методы. В результате делается вывод о том, что данные направления являются интегративными и перспективными в современной лингвистике.

Ключевые слова: *эколингвистика, лингвоэкология, языковое разнообразие, языковая политика, экологическое сознание.*

Elmira Khanaliyeva

Ecolinguistics and linguaecology: terminological approach and theoretical foundations

Summary

The article systematically analyzes the theoretical foundations, interrelations, and distinguishing features of ecolinguistics and linguaecology. The study demonstrates that ecolinguistics functions as a broad and interdisciplinary field that examines the interaction between language and ecological systems, providing a comprehensive explanation of language in relation to both natural and social environments. In contrast, linguaecology focuses on the conditions of existence and functioning of languages within specific environments, exploring their interaction within social, cultural, and geographical contexts.

The article identifies the methodological and conceptual differences between these two approaches while also substantiating their complementary nature. Despite these differences, both directions share a common goal: to investigate the interrelations between language, humans, and

the environment, as well as to contribute to the preservation of linguistic diversity, the promotion of sustainability, and the development of ecological awareness.

Furthermore, the role of language in ecological discourse, as well as language policy and language rights in preserving linguistic diversity are examined. In addition, macro- and micro-ecolinguistic approaches, along with modern methodological frameworks—discourse analysis, sociolinguistic and empirical methods are systematically presented. The study concludes that these fields represent integrative and perspective directions in modern linguistics.

Keywords: *ecolinguistics, linguaecology, linguistic diversity, language policy, ecological awareness.*

Çapa tövsiyə edən: ***Bakı Slavyan Universiteti***

Rəyçilər: ***dosent R.Heydərov***
dosent G.Əliyeva